# AZƏRBAYCAN DİLİ (dövlət dili)

*Azərbaycan dili istisna olmaqla, tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin şagirdləri tam orta təhsil səviyyəsində buraxılış imtahanı fənlərindən əlavə, Azərbaycan dili (dövlət dili) fənnindən də imtahan verirlər.*

## TAM ORTA (11 illik) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANI ÜÇÜN ALTSTANDARTLAR

**Bu fənn üzrə tam orta təhsil səviyyəsində təhsil alanların buraxılış imtahanında aşağıdakı altstandartlar üzrə bilik və bacarıqları yoxlanılır və qiymətləndirilir.**

**V sinif**

1.1.2. Dinlədiyi mətndəki əsas fikri müəyyənləşdirir.
3.1.2. Mətndəki sözləri orfoepik qaydalara uyğun oxuyur.
3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir.
4.1.2. Topladığı fakt və məlumatlara əsasən plan tərtib edir.
4.1.3. Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.

**VI sinif**

1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.
3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.
3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.
3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.
4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.
4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

**VII sinif**

1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır.
3.1.1. Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir.
3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.
4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.
4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

**VIII sinif**

1.1.1. Dinlədiyi mətndəki fikirlərin məntiqi ardıcıllığını müəyyənləşdirir.
1.1.2. Dinlədiyi mətndə fakt və hadisələri ümumiləşdirir.
3.1.1. Mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirir.
3.1.2. Əsas fikri nəzərə çarpdırmaq üçün məntiqi vurğudan istifadə edir.
3.1.3. Mətndəki fikirlərə münasibət bildirir.
4.1.3. Həmcins üzvlər, əlavələr, xitab və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl edir.

**IX sinif**

1.1.1 Dinlədiyi mətnin məzmununu şərh edir.
1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.
3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.
3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.
3.1.3. Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.
4.1.2. Məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.
4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

**X sinif**

1.1.2. Dinlədiyi mətndəki fikirləri real həyatla müqayisə edir.
3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir.
3.1.2. Oxuduğu mətnləri üslubuna görə fərqləndirir.
4.1.3. Mətnin tərtibat formasına uyğun yazılış və durğu işarələri qaydalarına əməl edir.

**XI sinif**

1.1.1. Dinlədiyi müxtəlif janr və üslubda olan mətnlərə münasibət bildirir.
1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimələrini əlavə fakt və nümunələrlə əsaslandırır.
3.1.1. Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah edir.
4.1.2. Üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni təkmilləşdirir.
4.1.3. Üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazır, durğu işarələri qaydalarına əməl edir.

# TAM ORTA (11 illik) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANI PROQRAMI

Proqram fənn kurikulumu üzrə təlim nəticələrinə uyğun olaraq V-XI sinif dərslikləri əsasında hazırlanmışdır.

İmtahanda fənn kurikulumunun Azərbaycan dili (dövlət dili) fənni üçün müəyyən etdiyi 4 məzmun xəttinə (**"Dinləyib-anlama", "Danışma", "Oxu", "Yazı"**) aid altstandartların hamısı üzrə bilik və bacarıqların yoxlanılması mümkün deyil. Bəzi altstandartların tələblərinin yoxlanılması üçün müəyyən vasitələr tələb edildiyindən onlarla bağlı tapşırıqlardan istifadə olunması məqsədəuyğun hesab edilmir.

İmtahanda məzmun standartlarının təlim nəticələrində nəzərdə tutulmuş tətbiqetmə, tədqiqetmə, əlaqələndirmə, uyğunluğu müəyyənetmə, fərqləndirmə, fikrini sxemlər, cədvəllərlə ifadəetmə, mühakiməyürütmə, əsaslandırma bacarıqlarının sistemli şəkildə nümayiş etdirilməsi tələb olunur.

Proqram 3 məzmun xətti (**"Dinləyib-anlama", "Oxu", "Yazı"**) üzrə altstandartların yoxlanılması və qiymətləndirilməsi üçün verilmiş materialları əhatə edir.

**"Oxu"** məzmun xətti ilə bağlı, əsasən, aşağıdakılara uyğun bilik və bacarıqlar nümayiş etdirilməlidir: mətndəki sözləri orfoepik qaydalara uyğun oxumaq, mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirmək, mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah etmək, mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirmək, mətndəki söz və ifadələrin mənasını sintaktik vəzifəsinə görə dəqiqləşdirmək, mətndəki fikirlərə münasibət bildirmək, mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah etmək, məqsəd və intonasiyaya görə cümlələrin növünü müəyyən etmək, mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərini izah etmək.

**"Yazı"** məzmun xətti üzrə, əsasən, aşağıdakılara uyğun bilik və bacarıqlar nümayiş etdirilməlidir: topladığı fakt və məlumatlara əsasən plan tərtib etmək, sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl etmək, mətnin hissələri arasında əlaqələri müəyyənləşdirmək, əsas və köməkçi nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl etmək, nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırmaq, həmcins üzvlər, izahedici sözlər (əlavələr), müraciət bildirən sözlər (xitab) və ara sözlərlə bağlı durğu işarələri qaydalarına əməl etmək, məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirmək, mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə etmək, üslubi xüsusiyyətlərini nəzərə almaqla mətni təkmilləşdirmək, üslubi çalarlarından asılı olaraq sözləri böyük və kiçik hərflərlə yazmaq, durğu işarələri qaydalarına əməl etmək.

**"Dinləyib-anlama"** məzmun xətti üzrə, əsasən, aşağıdakılara uyğun bilik və bacarıqlar nümayiş etdirilməlidir: dinlənilən mətndəki əsas fikri müəyyənləşdirmək, əsas fakt və hadisələri seçmək, qruplaşdırmaq və ümumiləşdirmək, fikrin məntiqi ardıcıllığını müəyyənləşdirmək, dinlənilən mətnin məzmununu şərh etmək, buradakı fikirlərlə bağlı mühakimə yürütmək.

Azərbaycan dili (dövlət dili) fənni üzrə təhsil proqramında (kurikulumda) **"Dil qaydaları"** məzmun xətti nəzərdə tutulmasa da, **"Oxu"** və **"Yazı"** məzmun xətlərinə aid altstandartlar içərisində dil qaydaları ilə bağlı tələblər də öz əksini tapmışdır. Dil qaydaları üzrə, əsasən, aşağıdakılarla bağlı bilik və bacarıqlar nümayiş etdirilməlidir:

**Fonetika.** Saitlərin növləri. Bəzi saitlərin uzun tələffüzü. Qoşasaitli sözlərin yazılışı və tələffüzü. Bir qrup qoşasaitli sözlərin tələffüzündə [y] səsinin artırılması. Bəzi sözlərdə **"o"** saitinin **[a]** kimi tələffüz edilməsi. Ahəng qanunu. Heca. Sözlərin sətirdən sətrə keçirilməsi. Vurğu. Samitlərin növləri. Qoşasamitli sözlərin yazılışı və tələffüzü. Qoşa samitlə bitən təkhecalı sözlərin tələffüzü və yazılışı. Qoşa "tt", "pp", "kk", "qq" ilə yazılan sözlərin tələffüzü. Qoşa "yy" ilə yazılan bəzi sözlərin tələffüzü. Qoşa "ll", "dd", "zz", "ss" və s. ilə yazılan sözlərin tələffüzü. Söz sonundakı "q", "k" samitlərinin tələffüzü. Saitlə başlayan şəkilçinin təsirindən bir sıra sözlərin sonundakı "q" samitinin "ğ" samitinə, "k" samitinin "y" samitinə keçməsi. Bəzi ikihecalı sözlərdə ikinci hecadakı saitin düşməsi. Sözdə "b", "m" samitlərindən əvvəl gələn "n" samitinin tələffüzü. "M", "n" ilə bitən sözlərə artırılan "-dan²" şəkilçisinin yazılışı və tələffüzü. "D", "g", "c", "b" samitləri ilə bitən sözlərin tələffüzü.

**Leksika.** Sözün leksik və qrammatik mənası. Sözün həqiqi və məcazi mənası. Çoxmənalı sözlər. Yazılışı və deyilişi eyni, leksik mənası fərqlənən sözlər (omonimlər). Yaxınmənalı sözlər (sinonimlər). Əksmənalı sözlər (antonimlər). Frazeoloji birləşmələr.

**Sözün tərkibi.** Sözün tərkib hissələri. Kök və şəkilçi. Leksik və qrammatik şəkilçilər. Sözün başlanğıc forması. Şəkilçilərin yazılışı. Sözə ahəng qanununa uyğun olaraq şəkilçilərin artırılması.

**Söz yaradıcılığı.** Sözün quruluşca növləri. Sadə, düzəltmə, mürəkkəb sözlər. Mürəkkəb sözlərin yaranma yolları və yazılışı.

**Morfologiya. Əsas və köməkçi nitq hissələri.**

İsim, onun əşyanın (varlıqların) adını bildirməsi. Tək və cəm isimlər. Toplu isimlər. Ümumi və xüsusi isimlər. Xüsusi isimlərin böyük hərflə yazılması. İsmin halları. Saitlə başlanan şəkilçinin təsirindən söz sonundakı "q"

samitinin "ğ" samitinə, "k" samitinin "y" samitinə keçməsi. İsmin mənsubiyyətə görə dəyişməsi. İsmin şəxsə görə dəyişməsi.

**Sifət**, onun əşyaya aid əlamət və keyfiyyət bildirməsi. Sifətin işlənmə yeri. Sifətin dərəcələri. Sifətlərin yazılışı.

**Say**, onun əşya ilə bağlı miqdar və sıra bildirməsi. Sayın mənaca növləri. Sayların yazılışı. Saylardan sonra gələn isimlərin təkdə və ya cəmdə işlənməsi.

**Əvəzlik**, onun əsas nitq hissələrinin yerində işlənməsi. Əvəzliyin məna növləri. İşarə, şəxs, sual, qeyri-müəyyən və təyini əvəzliklər. "O" və "bu" əvəzliklərindən sonra vergül işarəsindən istifadə qaydası.

**Zərf**, onun hərəkətlə bağlı olması. Zərfin mənaca növləri. Tərzi-hərəkət, zaman, yer və kəmiyyət (miqdar) zərfləri. Bəzi sözlərin sifət və zərf kimi işlənməsi.

**Feil**, onun əşyanın hərəkətini bildirməsi. Feilin zamanları. Keçmiş zaman. İndiki zaman. Gələcək zaman. Təsdiq və inkar feillər. Feilin şəkilləri (əmr şəkli, xəbər şəkli, şərt şəkli və s.). Feilin şəxsə görə dəyişməsi. Təsriflənən (dəyişən) və təsriflənməyən (dəyişməyən) feillər. Məsdər. Feili sifət (feili sifət və feildən düzələn sifət). Feili bağlama.

**Köməkçi nitq hissələri.**

**Qoşma** köməkçi nitq hissəsi kimi. Qoşmaların yazılışı.

**Bağlayıcı** cümlə üzvləri və cümlələr arasında əlaqə yaradan köməkçi nitq hissəsi kimi. Bağlayıcıların yazılışı və onlarla bağlı vergül işarəsindən istifadə qaydası.

**Ədat** sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsi kimi. Ədatların yazılışı.

**Modal sözlər** danışanın ifadə etdiyi fikrə münasibətini bildirən köməkçi nitq hissəsi kimi. Modal sözlərin cümlədə yeri, yazılışı və onlarla bağlı vergül işarəsindən istifadə qaydası.

**Nida** hiss və həyəcan bildirən köməkçi nitq hissəsi kimi.

**Sintaksis. Söz birləşməsi.** Söz birləşməsinin söz və cümlədən fərqi. İsmi və feili birləşmələr.

**Cümlə.** Məqsəd və intonasiyaya görə cümlənin növləri: nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi.

**Cümlə üzvləri.** Mübtəda və xəbər cümlənin baş üzvləri kimi. Mübtədanın cümlədə yeri. Xəbər (ismi və feili xəbər). Mübtəda və xəbərin şəxsə və kəmiyyətə görə uzlaşması. Cümlənin ikinci dərəcəli üzvləri. Tamamlıq. Təyin. Zərflik.

**Həmcins üzvlər.** Həmcins üzvlərdə durğu işarələri.

**İzahedici sözlər (əlavələr).** Əlavələrdə durğu işarələri.

**Məntiqi vurğu.** Cümlədə söz sırası.

**Cümlə üzvləri ilə əlaqələnməyən sözlər.** Xitab müraciət bildirən söz kimi. Ara sözlər. Xitab və ara sözlərdə durğu işarələri.

**Cümlənin quruluşca növləri:** Sadə və mürəkkəb cümlələr. Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında məna əlaqələri. Tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr. Tabeli mürəkkəb cümlə. Əsas (baş) və asılı (budaq) cümlə. Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr. Mürəkkəb cümlənin tərkib hissələri arasında durğu işarələri.

**Vasitəsiz nitq.** Vasitəsiz nitqin müəllif sözündən əvvəl və sonra işlədilməsi. Bu zaman durğu işarələrindən istifadə qaydası. Dialoqda durğu işarələri.

**Vasitəli nitq.**

**Azərbaycan ədəbi dilinin normaları (fonetik, leksik, qrammatik normalar).**

**Üslubiyyat. Üslublar.**

**Bədii üslubun xüsusiyyətləri.** Sözün informativ və poetik funksiyası. Bədii üslubda obrazlılığın yaradılması vasitələri (bədii təzad, ritorik sual, bədii xitab, bədii nümunələrdə ixtisarlar).

**Elmi üslubun xüsusiyyətləri.** Sözün terminoloji funksiyası.

**Publisistik üslubun xüsusiyyətləri.**

**Rəsmi-işgüzar üslubun xüsusiyyətləri.** Rəsmi sənədlər və işgüzar sənədlər.

**Məişət üslubunun xüsusiyyətləri.**

**Nitq etiketləri.**

***Qeyd:*** Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan dilinin orfoepiya normaları"nın təsdiq edilməsi haqqında 18 iyun 2021-ci il tarixli 175 №-li qərarında əksini tapan bəzi qaydalar şagirdlərin istifadə etdikləri aşağı sinif dərsliklərində verilmədiyindən imtahanlarda bu mövzularla bağlı tapşırıqlardan istifadə edilməyəcək:

1. tərkibində ***ae, ea, eə, əa, eo, üa, üə, au, ua, ue, uə*** yanaşı yazılan saitlərin işləndiyi sözlərin tələffüzü ilə bağlı;
2. tərkibində ***ov, öv*** hərf birləşmələri olan sözlərin tələffüzü ilə bağlı.

## *ƏSAS ƏDƏBİYYAT SİYAHISI*


1. *R.İsmayılov, Ü.Nurullayeva, R.Həbibli. "Azərbaycan dili (dövlət dili)". 5-ci sinif, Bakı – 2024.*
2. *R.İsmayılov, Ü.Nurullayeva, R.Həbibli. "Azərbaycan dili (dövlət dili)". 6-cı sinif, Bakı – 2025.*
3. *S.Bektaşi, Y.Abdullayeva. "Azərbaycan dili". 7-ci sinif, Bakı – 2022.*
4. *S.Bektaşi, Y.Abdullayeva. "Azərbaycan dili". 8-ci sinif, Bakı – 2023.*
5. *S.Q.Bektaşi, A.İsmayılova. "Azərbaycan dili (dövlət dili)". 9-cu sinif, Bakı – 2024.*
6. *N.Cəfərov, S.Q.Bektaşi, A.İsmayılova. "Azərbaycan dili". 10-cu sinif, Bakı – 2022.*
7. *S.Q.Bektaşi. "Azərbaycan dili". 11-ci sinif, Bakı – 2023.*


## *ƏLAVƏ ƏDƏBİYYAT SİYAHISI*


1. *"Azərbaycan dili (dövlət dili)". Azərbaycan dili istisna olmaqla, tədris digər dillərdə olan ümumtəhsil müəssisələrinin şagirdləri, müəllimləri və Azərbaycan dili (dövlət dili) fənni üzrə imtahana hazırlaşanlar üçün vəsait. Bakı – 2024.*
2. *"Azərbaycan dili". 5-9-cu siniflər üçün qiymətləndirmə tapşırıqları kitabçaları.*

*"Abituriyent" jurnalının 1-ci nömrəsinin əlavəsi. Bakı – 2025.*

3. *"Azərbaycan dili". Test toplusu. (Ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanına hazırlaşanlar üçün) "Abituriyent" jurnalının 1-ci nömrəsinin əlavəsi – Bakı, 2025.*

*Proqram Dövlət İmtahan Mərkəzində 27.10.2025-ci il tarixində keçirilmiş iclasda (Protokol № 2) müzakirə edilərək qəbul olunmuşdur.*

*Dövlət İmtahan Mərkəzi proqramın hazırlanmasında zəhməti olanlara minnətdarlığını bildirir.*